# ADAU: AMALIMIZ YÜKSƏK İXTİSASLI MÜTƏXƏSSİSLƏR HAZIRLAMAQDIR

**Azərbaycan Kənd Təsərrüfatı İnstitutu nəinki yüksəkixtisaslı kadr hazırlamalı, həm də respublikada kənd təsərrüfatını daha da inkişaf etdirmək sahəsində elmi tədqiqatların mühüm mərkəzi olmalıdır.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**



Azərbaycan dövlətinin özünütəsdiq faktına çevrilmiş Heydər Əliyev fenomeni respublikaya rəhbərliyi dövründə möhkəm təməllərə əsaslanaraq fundamental dövlətçilik ənənələri formalaşdırmış, milli müstəqilliyimizi əbədiləşdirmişdir. Yüksək nüfuz, təşkilatçılıq bacarığı, müdriklik, intellektuallıq, milli-mənəvi dəyərləri daim uca tutması, qətiyyətlilik kimi yüksək və zəngin keyfiyyətlər sayəsində Türk dünyasının fenomeni, əbədiyaşar Heydər Əliyevin qurub-yaratdığı azad və müstəqil odlar yurdu - Azərbaycan bu gün özünün inkişaf dinamikasına və yüksək potensialına görə nəinki Müstəqil Dövlətlər Məkanında, eləcə də dünya səviyyəsində yüksək göstəricilərə malik dövlətlər sırasında öz layiqli yerini tutmuşdur.

Sürətli və davamlı iqtisadi tərəqqi təməli üzərində qurulmuş gənc respublikamız dövlət başçısı cənab İlham Əliyev tərəfindən, bu gün öz inkişaf tempinə görə regionda lider ölkəyə çevrilmişdir. Bu gün Azərbaycanımızın hər bir guşəsində bu inkişaf özünü qabarıq şəkildə göstərməkdədir. Şeyx Nizami yurdu ulu Gəncə də bu gün sözün əsl mənasında, öz intibah dövrünü yaşayır. Şəhərin gözəl siması, əfsanəvi süni göl, Gəncə çayının sahilində bulvar kompleksi və orijinal şəlalələr, gözoxşayan füsunkar fəvvarələr şəhərə gələn qonaqların qəlbini riqqətə gətirir. Analoqu olmayan Heydər Əliyev park-kompleksində minlərlə bölgə sakinləri buraya axışaraq dincəlir, təbiətindən sanki yeni bir ruhi qida alır, bu füsunkar gözəlliyi qurub-yaratdığı, onlara gündəlik diqqət və qayğısı üçün ölkə başçısına daim dərin minnətdarlıqlarını bildirirlər.

Şəhərdə fəaliyyət göstərən bütün infrastrukturlar yeniləşir, elm, təhsil, səhiyyə, mədəniyyət ocaqlarında aparılan məqsədyönlü islahatlar və nəhəng layihələr yüksək səviyyədə həllini tapır. Bəli, müasir era sürətlə və dinamik inkişaf edən Azərbaycanda, onun tarixi, fəlsəfəsi, ədəbiyyatı, mədəniyyəti, incəsənəti, kənd təsərrüfatı kimi mühüm sahələrin inkişafı üçün yeni imkanlar yaratmışdır. Bu imkanlar Azərbaycanın hüquqi islahatlarına, ölkədə siyasi fikir, siyasi sistemlərə iqtisadi-sosial inkişafa - geniş üfüqlərə yol açmışdır.

Çox qədim, zəngin və şanlı tarixi ənənələrə malik, müstəqilliyin əsasları məhz burada qoyulan, Xalq Cümhuriyyətinin yerləşdiyi binada fəaliyyət göstərən, Azərbaycan Dövlət Aqrar Universiteti yaradılandan bəri, Avropa təhsilinin və mədəniyyətinin əsas hissəsi olmaqla, özündə klassik universitetin konsepsiyasını, onun tədqiqatlarını və təhsilini təcəssüm etdirmişdir.

Universitetin məramı məhz kamil insan, rəqabətədavamlı şəxsiyyət yetişdirmək, bacarıq və vərdişlər sisteminə yiyələnməklə bərabər, həm də sosial ədalət müdafiəçisi kimi bir vətəndaş bəxş etməkdir. Bu, sözün əsl mənasında Aqrar Universitetdə özünü təcəssüm etdirir. Belə ki, bu universitet ali məktəblərə örnəkdir. Respublikanın qocaman, zəngin tarixə və ənənələrə malik, yüksəkixtisaslı kənd təsərrüfatı mütəxəssisləri hazırlayan yeganə Azərbaycan Dövlət Aqrar Universitetində də dövlət başçısının diqqət və qayğısı ilə əsaslı yenidənqurma, tikinti-abadlıq işləri aparılmış, professor-müəllim və tələbələr üçün maksimum şərait yaradılmış, müasir tədris avadanlıqları ilə təchizat yaxşılaşdırılmış, tələbələr üçün maksimum şərait yaradılmış, təhsildə şəffaflıq, obyektivlik əsas meyar kimi qəbul olunmuşdur.

Son 5 ildə universitet rəhbərliyi öz qətiyyəti, cəsarəti və tələbkarlığı ilə 70-ci illərdəki Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun şanlı və şərəfli tarixini özünə qaytarmışdır desək haqlı olarıq.

Bu gün artıq mübaliğəsiz, sözün əsl mənasında Aqrar Universitet öz intibah dövrünü yaşayır. Bu qədim universitetin son illərdə diqqəti çəkən, inkişaf tempinə nəzər salmaq üçün **həyatının böyük hissəsini təhsilə, elmə sərf etmiş, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, AMEA-nın müxbir üzvü İbrahim Cəfərovdan** son illərdə universitetin fəaliyyəti haqqında məlumat verməyini xahiş etdik:

- Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev fenomeni öz müdrik siyasəti, müdrik nurlu siması, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə, müasir qüdrətli Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz bütün dövrlərdə Heydər Əliyevin əbədiyaşar fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensiallarından istifadə edərək, dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Bununla belə Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, dövlət başçısı İlham Əliyevin uğurlu siyasəti, ölkəmizdə misli görünməmiş qlobal yeniləşmə prosesinin və dinamik təkamülün vüsət alması məmləkətimizin daha sürətlə sivil dünyaya inteqrasiya olunmasına gətirib çıxarmışdır.

Azərbaycanın zəngin ənənələrə



malik dörd mindən çox yaşı olan ikinci sənaye və mədəniyyət mərkəzi ulu Gəncədə, Şeyx Nizami yurdunda da aparılan bənzərsiz, sürətli inkişaf göz qabağındadır. Möhtərəm Prezidentimiz İlham Əliyevin çox qiymətli kəlamı ilə desək "Şəhərin inkişafı çox surətlidir, təqdirəlayiqdir". Şəhərin hər bir güşəsi cənnətə çevrilmişdir. Ali təhsil ocaqlarında müasir standartlara uyğun binaların yenidənqurulması, onların lazımi avadanlıqlarla təchiz olunması təhsilin keyfiyyətinə əvəzolunmaz təsirini göstərməkdədir. Bəli, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllimlərin və tələbələrin sosial-məişət problemlərinin yüksək səviyyədə həll olunması prioritet məsələlərdəndir. Azərbaycan Dövlət Aqrar Universiteti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilin və elmin inkişafına yönəldilmiş tövsiyə və tapşırıqlarını rəhbər tutaraq Nazirlər Kabinetinin, Təhsil Nazirliyinin normativ-hüquqi sənədlərinin tələbləri baxımından Kənd Təsərrüfatı Nazirliyinin müvafiq əmrlərinə və sərəncamlarına uyğun öz fəaliyyətini qurmuşdur. Yüksək kadr hazırlığı üçün maddi-texniki bazanın möhkəmləndirilməsi əsas hədəfimiz hesab edilmiş və iri addımlar atılmışdır. Bir əsrə yaxın yaşı olan Azərbaycan Dövlət Aqrar Universitetində bakalavriat, magistratura və doktorantura səviyyələrində mütəxəssis hazırlığı aparılır. Onların tədrisi ilə 500-dən çox professor-müəllim çalışır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aqrar sektora və aqrar təhsilə diqqəti və qayğısı sayəsində Universitetin maddi-texniki bazası əhəmiyyətli səviyyədə möhkəmləndirilmiş, tədris korpusları əsaslı təmir olunmuş, yeni korpuslar inşa edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2016-cı il fevralın 17-də həmin il üçün birinci, ümumilikdə isə Gəncəyə 15-ci səfərində - 2017-ci ilin noyabrın 10-da isə çoxsaylı sosial-mədəni obyektlərlə yanaşı, Azərbaycan Dövlət Aqrar Universitetinin ikinci "Tələbə evi"nin açılışında da iştirak etmiş, xoş sözlər söyləmiş, universitetin gələcək inkişafı naminə tövsiyələrini və xeyir-duasını vermişdir, bu isə ADAU ailəsini daha yaxşı işləməyə ruhlandırmışdır. Dünya standartları səviyyəsində inşa edilmiş bu yataqxanalar tələbələrin normal təhsili və asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynamaqla yanaşı, əcnəbilərin universitetə cəlbi istiqamətində də müsbət nəticələrin əldə edilməsinə zəmin yaratmışdır. Universitetin zəngin maddi-texniki bazası, bitkiçilik və heyvandarlıq sahələri üzrə çoxlu sayda mərkəzləri, müasir avadanlıqlarla təchiz edilmiş auditoriya və laboratoriyaları, kabinələri, rahat yaşayış üçün nümunəvi yataqxanaların olması, abituriyentlərin məhz Azərbaycan Dövlət Aqrar Universitetini seçməyə çox maraq göstərməsinin bariz nümunəsidir. Məktəbgushesi.az internet portalı təhsil spektrini əhatə edən "Təhsilin və idarəetmənin keyfiyyətinə görə hansı universiteti seçərdiniz?" nominasiyalı növbəti sorğu respublikamızda fəaliyyət göstərən 31 universitet arasında avqust-sentyabr aylarında keçirilmiş, ümumilikdə sorğuda 17948 respondent iştirak etmişdir. Sorğuda iştirak edənlərin əksəriyyəti respublikanın 5 aparıcı universiteti arasında qiymətləndirmə aparıb.

Artıq 2-ci dəfədir ki, Məktəbgushesi.az internet portalında keçirilən sorğuda ADAU ölkədə fəaliyyət göstərən ali məktəblər arasında birinci yerə layiq görülüb. Eyni zamanda universitetin xarici ölkələrin tanınmış ali təhsil müəssisələri ilə sıx əlaqələri olduğundan tələbələrə həmin universitetlərdə təhsil almaq imkanı da yaratmışdır. Son 5 ildə universitetdə kadr hazırlığı ilə məşğul olan professor-müəllim heyətinin tərkibi cavan, perspektivli və xarici dilli mütəxəssislərin hesabına əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. 5 mindən artıq tələbəsi olan ADAU-da bu gün Azərbaycan dili ilə yanaşı, 10 ixtisasda rus, 3 ixtisasda isə ingilis dillərində tədris aparılır. Növbəti tədris ilindən ingilis dilli ixtisasların sayına 3-ü də əlavə olunacaqdır. 2013-cü və 2014-cü illərdə kənd təsərrüfatı ixtisasları qrupunda "torpaqşünaslıq və aqrokimya" ixtisasına 30 və 12, "aqronomluq" ixtisasına 3 və 5, "baytarlıq" ixtisasına 24 və 28 nəfər qəbul olunduğu, "zootexniklik" ixtisasına isə 1 nəfər belə qəbul olunmadığı halda, növbəti illərdə bu və digər kənd təsərrüfatı ixtisaslarının plan yerləri 30-90 nəfər olmaqla 100% yerinə yetirilmişdir. 2014-cü ildə "meşəçilik" ixtisasına 1 nəfər qəbul olundugu, "balıqçılıq və balıqçılıq təsərrüfatı işi" və "su bioehtiyatları və akvabitkilər" ixtisaslarına 1 nəfər belə qəbul olunmadığı halda, növbəti illərdə bu ixtisasların plan yerləri 30-45 nəfər olmaqla 100% yerinə yetirilmişdir. 2013/2014 və 2014/2015-ci tədris illərində qəbul imtahanlarında abituriyentlərin topladıqları ən yüksək bal 400-450 olduğu halda, 2015/2016, 2016/2017, 2017/2018-ci tədris illərində 500-650 arasında bal toplayanlar universitetə qəbul olunmuşdur.

Gələcək mütəxəssislər kimi yetişən tələbə gənclərə qayğı və diqqət gündən-günə artırılır, onların bilik və bacarığından səmərəli istifadə olunması üçün maksimum işlər aparılır. Eyni zamanda onlarda əlavə istedadları ortaya çıxarmaq üçün rəsm əsərlərinin sərgisi, inşa müsabiqələrinin keçirilməsi universitetdə son 5 ildə ənənə şəklini almışdır ki, bütün bunlar da onların intellektual səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Tələbələrə dövlətin diqqət və qayğısının bariz nümunəsidir ki, bu ildən ölkə Prezidenti cənab İlham Əliyevin göstərişi əsasında qəbul imtahanlarında 500 və daha çox bal toplayan, Azərbaycan Dövlət Aqrar Universitetinin kənd təsərrüfatı yönümlü ixtisaslarını seçən abituriyentlərə universitetin büdcədənkənar vəsaiti hesabına 200 (iki yüz) manat əlavə təqaüd veriləcək. 2017/2018-ci tədris ilində bakalavriat səviyyəsinə 1185 tələbə qəbul olunmuşdur ki, bu da ümumi qəbul planının 90%-ni təşkil edir. Magistratura səviyyəsinə 184 nəfər (85%) qəbul olunmuş, onlardan 102 nəfəri (55%) dövlət sifarişi əsasındadır. 72 ixtisaslaşmadan 65-i üzrə qəbul planı 90% yerinə yetirilmişdir. Bakalavriat səviyyəsində kənd təsərrüfatı ixtisaslarına 656 nəfər qəbul olunmuşdur ki, bu da qəbul planının 50%-ni təşkil edir. Ümumi qəbul planının isə 702 nəfəri (53%) dövlət sifarişi əsasındadır.

Azərbaycan Dövlət Aqrar Universitetində ustad dərslərinə də ciddi önəm verilir. ABŞ-ın İllinoys Universitetinin professoru, ADAU-nun fəxri doktoru Mohammad Babadoost tərəfindən nəzəri və praktiki formada keçirilən dərslərdə aqronomluq fakültəsinin tələbələri, magistrantları, gənc müəllimlər, dosent və professorlar iştirak etmişlər. M.Babadoost aqrar sahədə çalışan alimlərin, fermerlərin, torpaq mülkiyyətçilərinin və iş adamlarının iştirakı ilə işgüzar seminar-



müşavirə də keçirib. Seminar-müşavirədə Tərtər, Samux, Goranboy, Şəmkir, Göygöl, Daşkəsən, Qazax və Tovuz rayonundan 40 nəfərdən artıq fermer, torpaq mülkiyyətçisi və iş adamı iştirak edib. Böyük əhəmiyyət kəsb edən ustad dərslərini Türkiyəli professor Dilarə xanım Saltıq, AMEA Genetik Ehtiyatlar İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru Eldar Mustafayev də aparmışlar. Fevral və mart aylarında "ADAU-nu tanıyaq" layihəsi çərçivəsində peşəyönümü məqsədilə Gəncənin 40, Göygöl rayonunun 8, Samux rayonunun 4 orta məktəbinin buraxılış sinif şagirdləri öz müəllimləri və ADAU-nun məsul işçilərinin müşayiəti ilə Universitetə məxsus avtobuslarla maddi-texniki baza ilə tanış olmuş, professor-müəllim heyəti ilə görüşlər keçirmişlər ki, bu da onlarda universitet haqqında xoş təəssürat yaratmışdır. Bundan başqa universitetin əməkdaşları peşəyönümü məqsədilə respublikanın rayonlarına ezam edilmiş, ADAU haqqında tanıtım filmini və bukletləri məktəblərdə nümayiş etdirmiş, məzmunlu görüşlər keçirmişlər. Bu gün universitetdə tələbələrin innovativ ideyalarının dəstəklənməsi üçün yaradılmış yeni təsisatlar, o cümlədən aqrobiznes inkubasiya mərkəzi, aqrokimya, toxumçuluq, qapalı və açıq balıqyetişdirmə, kənd təsərrüfatı maşınlarının intellektual idarə edilməsi laboratoriyaları, quşçuluq, bildirçin, süni mayalanma tədris mərkəzləri, maşın-traktor parkı, heyvandarlıq kompleksi, bitki və baytarlıq klinikaları, patoloji anatomiya muzeyi-auditoriyası tələbələrimizin innovativ ideyalarının, startap layihələrinin həyata keçirilməsinə münbit şərait yaratmışdır.

Bu gün Universitet dünyanın 20-dən çox ölkəsinin 60-dan artıq universiteti ilə, eyni zamanda aqrar sahə ilə əlaqəli müxtəlif təşkilat və birliklərlə ikitərəfli münasibətdədir. Bunlar ABŞ, Almaniya, Türkiyə, Rusiya, Qazaxıstan, Çin, Polşa, İtaliya, Norveç, Macarıstan, Sloveniya, Çexiya və sair kimi ölkələrin aparıcı aqrar universitetləridir. Son 5 ildə yüzlərlə müəllim və tələbə təhsil almaq, təcrübə keçmək, dərs demək, seminarlarda iştirak etmək və ikitərəfli əlaqələrin qurulması məqsədi ilə dünyanın müxtəlif ölkələrinin aparıcı universitetlərinə göndərilmişdir. Universitetdə dövrün tələbi olan fermerlərlə əlaqə ənənə şəklini almış və prioritet məsələlərdəndir. Bu baxımdan təkcə bu il - 2018-ci ilin 18 yanvar tarixində universitetdə respublikanın müxtəlif rayonlarından olan çoxsaylı fermerlərin iştirakı ilə "Günəbaxan bitkisinin becərilmə texnologiyası", 26 yanvar tarixində "Bağçılığın aktual problemləri", 6 fevral tarixində "İribuynuzlu malqaranın bəslənməsi", 13 fevral tarixində "Quşlarin bəslənməsi" və 06 mart tarixində "Aqrar sahədə yüksək məhsuldar maşınlar kompleksindən səmərəli istifadə" mövzularında elmi-praktik seminarlar keçirilmişdir ki, bu da aqrar sahə ilə məşğul olan fermerlərə, torpaq mülkiyyətçilərinə və iş adamlarına aqrar sahəyə dövlət dəstəyinin və daha yüksək məhsuldarlığa nail olmaq üçün elm adamlarının tövsiyələrinin zəruriliyini diqqətə çatdırmışlar. Samux, Goranboy, Tərtər, Bərdə, Ucar, Gədəbəy, Ağdam, Şəmkir, Daşkəsən, Tovuz və Göygöl rayonlarından olan torpaq mülkiyyətçilərini, fermer və sahibkarları bu elmi-praktik seminarda təhsil müəssisəsinin alimlərinin təklifləindən razı qalmışlar.

21.02.2018-ci il tarixində mütəxəssislərimiz Xaçmaz rayonunun Yalama aqroparkında fermerlər və aqroparkın mütəxəssisləri ilə görüşüb, 02.03.2018-ci il tarixində Şəmkir rayonunun S.Vurğun kəndində bir qrup fermerlərə məsləhət vermiş və həmin ərazidə BP şirkəti tərəfindən meyvə bağının salınması planlaşdırılan sahədən torpağın aqrokimyəvi xüsusiyyətlərini təyin etmək üçün torpaq nümunələri götürülmüş və analiz olunaraq nəticələri sifarişçilərə verilmişdir. 09 mart 2018-ci il tarixində Göyçay rayonunda torpaq mülkiyyətçilərinin, fermerlərin və sahibkarların iştirakı ilə "Kənd təsərrüfatı bitkilərinin becərilmə texnologiyası" mövzusunda seminar-müşavirə keçirilmişdir. Seminar-müşavirədə meyvə bağlarında mövcud problemlər və onların həlli yolları, meyvə bitkilərinin xəstəlik və zərərvericiləri, onlara qarşı mübarizə tədbirləri, taxıl sahələrində aqrotexniki tədbirlərin təqvimi, taxılın xəstəlik və zərərvericiləri, onlara qarşı mübarizə tədbirləri, istixana şəraitində tərəvəz bitkilərinin becərilmə texnologiyası, tərəvəz bitkilərinin xəstəlik və zərərvericiləri, onlara qarşı mübarizə tədbirləri mövzularında ADAU alimlərinin məruzələri dinlənilmişdir. Onu xüsusilə demək yerinə düşərdi ki, Texniki mexanika və qrafika kafedrasının müdiri, texnika üzrə fəlsəfə doktoru Şahlar Babayev pambıq əkinində səpin normasına 4 dəfə qənaət edən və toxumlarda heç bir zədələnmə yaratmayan yüksək iqtisadi səmərəyə malik iki qurğu - mini zavod ixtira edib ki, bu qurğuların respublika miqyasında tətbiqinə nail olunarsa "ağ qızıl" sahələrimizi Türkiyə və Hindistandan kiloqramı 6 manata gətirilən və hər hektara 80 kiloqram səpin çiyidi lazım olan toxumlarla deyil, ölkəmizin yerli iqlim şəraitinə uyğun, maya dəyəri 50-60 qəpik olan və hər hektara 18-20 kiloqram tələb olunan toxumlarla təmin etmək mümkündür.

Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə universitetdə arıçılıqda xəstəliklərlə bağlı təqdimat keçirilib. Təqdimatda müəllim və tələbələri ilə birgə arıçılıqla məşğul olan iş adamları da iştirak edib. Təqdimatı Türkiyənin Bursa şəhərindəki Uludağ Universitetinin professoru, doktor Levent Aydın edib, arıçılıqda xəstəliklərlə bağlı iştirakçılara geniş və elmi məlumatlar vermişdir ki, bu da fermerlərə olduqca əhəmiyyətlidir.

Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) rektorluğu və professor-müəllim heyəti fermerlərlə müşavirələri, elmi-praktik konfransları və seminarları təkcə təhsil müəssisəsində keçirmir, onlar vaxtaşırı rayonlarda olur, bu cür tədbirləri yerlərdə də reallaşdırırlar. Zaqatala, Quba, Şəmkir, Tərtər və digər rayonlardan sonra professor-müəllim heyəti martın 9-da Göyçayda olmuşlar. Onu xüsusilə qeyd etmək lazımdır ki,Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə Azərbaycan Dövlət Aqrar Universitetinin rektorunun adına ünvanlandığı 21 fevral 2018-ci il tarixli, 54 nömrəli məktubunda rayonun taxılçılıq, meyvəçilik və istixana şəraitində çalışan torpaq mülkiyyətçilərinin və fermerlərin ADAU alimlərinin məsləhətlərinə ehtiyacları olduğunu bildirib. Məktuba cavab olaraq təhsil müəssisəsinin alimləri növbəti müşavirəni Göyçay rayonunda keçirib. Alimlər əvvəlcə rayonun təsərrüfatlarına baş çəkib, mövcud durumla tanış olublar. Taxıl sahələrində, meyvə bağlarında, istixanalarda və çəkilliklərdə vəziyyətlə tanış olan alimlər torpaq mülkiyyətçilərinə hər sahəyə aid tövsiyə və təlimatlarını bildiriblər. Sonra rayon mərkəzində fermerlərin iştirakı ilə seminar-müşavirə başlayıb. Seminar-müşavirədə meyvə bağlarında mövcud problemlər və onların həlli yolları, meyvə və tərəvəz bitkilərinin xəstəlik və zərərvericiləri, onlara qarşı mübarizə, taxıl sahələrində aqrotexniki tədbirlərin təqvimi, taxılın xəstəlik və zərərvericiləri, onlara qarşı mübarizə üsulları, istixana şəraitində tərəvəz bitkilərinin becərilmə texnologiyası mövzularında ADAU alimlərinin məruzələri, habelə baramaçılıq mövzusunda Göyçay rayon Kənd təsərrüfatı idarəsi rəisinin məruzəsi maraqla dinlənilib.

Göründüyü kimi Azərbaycan Dövlət Aqrar Univeristeti Cənubi Qafqazda aqrar elminin yenidən qurulmasında çox mühüm işlər görmüş və görməkdədir. Universitetin alimləri, gənc tədqiqatçıları və kreativ tələbələri bir sıra milli və beynəlxalq elmi nailiyyətlər qazanmışlar. Azərbaycan Milli Elmlər Akedemiyasının, Avropa elmi təşkilatlarının və başqa beynəlxalq təşkilatların alimləri tərəfindən universitetin nailiyyətləri yüksək qiymətləndirilmişdir. Respublika Prezidenti cənab İlham Əliyevin ölkədə təhsilə göstərdiyi maksimum diqqət və qayğı bizi daim irəliyə, novatorluğa, yeni-yeni nailiyyətlər qazanmağa sövq edir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**







